

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 175 (21.327)

8 sentyabr 2015-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Sentyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində tikintisi başa çatdırılan ikinci dərəcəli sərhəd gözətçi gəmisi ilə tanış olub.

Dövlətimizin başçısı Sahil Mühafizənin sərhəd gözətçi gəmilərinin fəaliyyətini əks etdirən filmə və onların texniki göstəriciləri ilə bağlı stendə baxıb.

Prezident İlham Əliyevə inşası başa çatdırılan ikinci dərəcəli sərhəd gözətçi gəmisi barədə məlumat verilib.

Dövlətimizin başçısı ikinci dərəcəli gəmidə yaradılan şəraitlə tanış olub, üçüncü dərəcəli gəmilərin keçidinə baxıb.

* * *

Sentyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Binəqədi rayonundakı 283 nömrəli orta məktəbdə həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 7-də Dünya Gömrük Təşkilatının baş katibi Kunio Mikuriyanı qəbul edib.

Görüşdə Azərbaycan ilə Dünya Gömrük Təşkilatı arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.




## Hava limanında quruculuq işləri davam etdirilir



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, eləcə də muxtar respublikada aviasiya sahəsində kompleks tədbirlər həyata keçirilir. Ölkə başçısının müvafiq sərəncamı ilə Azərbaycan Milli Aviasiyasının 2004-2010-cu illər üçün ikinci inkişaf proqramı qəbul olunub, paytaxt və regionlarda olan hava limanlarının maddi-texniki bazası möhkəmləndirilib, müasir xidmət infrastrukturu yaradılıb.***

Belə ki, bu sahədə görülən işlərin davamı olaraq, Naxçıvan Muxtar Respublikasında da mülki aviasiya sisteminin müasirləşdirilməsi diqqət mərkəzində saxlanılıb, həyata keçirilən kompleks quruculuq tədbirləri Naxçıvan Beynəlxalq Hava Limanını müasir inkişaf mərhələsinə çıxarıb. Ötən müddətdə hava limanının aerovağzal kompleksi yenidən qurulub, sərnişin və aviadaşımalarla bağlı xidmətin səviyyəsi daha da yüksəldilib. Hazırda terminal binasında yenidənqurma işləri davam etdirilir. Sərnişinlərin rahatlığının təmin olunması üçün burada 2 eskalator, 2 iritutumlu lift, binadan təyyarə dayanacağınadək 2 keçid körpü və 2 teleskopik trap quraşdırılıb. Teleskopik traplar vasitəsilə sərnişinlər rahatlıqla təyyarələrə minə və təyyarədən terminal binasına keçə biləcəklər. Ümumi sahəsi 1060 kvadratmetr olan yeni gözləmə zalında hazırda son tamamlama işləri görülür. Burada xidmətin nümunəvi təşkili, qonaqların qarşılanıb yola salınması, aviasiya və gömrük xidmətinin təmin edilməsi üçün hərtərəfli şərait yaradılacaq, kafe və mağaza fəaliyyət göstərəcək. İşlər yekunlaşdıqdan sonra digər zalda da yenidənqurma işləri aparılacaq ki, bu da sərnişinlərin hər iki keçiddən rahatlıqla istifadə etməsinə imkan verəcək.

Qeyd edək ki, Naxçıvan Beynəlxalq Hava Limanının aerovağzal kompleksində beynəlxalq aviasiyada istifadə olunan ən son elmi-texniki yeniliklər tətbiq edilir. Aerovağzal kompleksinin yenidən qurulması işləri çərçivəsində həyata keçirilən tədbirlər illik sərnişin və yükdaşıma dövriyyəsinin artmasına da şərait yaradacaqdır.

## Əhaliyə göstərilən bank xidmətlərinin səviyyəsi yüksəldilir

*Muxtar respublikamızda sürətli iqtisadi inkişaf bank xidmətlərinin də həcminin artmasına səbəb olmuşdur. Cari ildə bank xidmətlərindən istifadə üçün edilən müraciətlərdəki artım bunu deməyə əsas verir.*

Belə ki, Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindən aldığımız məlumata əsasən, ötən ilin yanvar-avqust aylarında cəmi bank hesablarının 86,5 faizi işlək hesabların payına düşürdüsə, bu göstərici cari ilin eyni dövründə 91,8 faiz olmuşdur.

1 sentyabr 2015-ci il tarixə muxtar respublikanın iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 123 milyon 130 min, o cümlədən qısamüddətli kredit qoyuluşu 15 milyon 699 min manat, uzunmüddətli kredit qoyuluşu 107 milyon 430 min manat təşkil etmişdir.

2015-ci ilin ilk 8 ayı ərzində muxtar respublikanın bank və digər kredit təşkilatları tərəfindən 52 milyon 892 min manat kredit verilmişdir ki, bunun da 37 milyon 284 min manatını uzunmüddətli kreditlər təşkil edir. Verilmiş kreditlərin 14 milyon 552 min manatı kənd təsərrüfatının, o cümlədən 1 milyon 532 min manatı bitkiçiliyin, taxılçılığın, kartofçuluğun və bostantərəvəz məhsulları istehsalının, 1 milyon 59 min manatı isə arıçılıq və quşçuluğun payına düşür. Ümumilikdə, verilmiş kreditlərin 11 milyon 642 min manatı sənaye, 556 min manatı tikinti, 4 milyon 714 min manatı kommersiya, 5 milyon 921 min manatı nəqliyyat, 4 milyon 976 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditləri və digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilmişdir.

Əhalidən cəlb edilən cəmi əmanətlərin həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 1 sentyabr 2015-ci il tarixə 1 milyon 470 min manat artaraq 7 milyon 659 min manat olmuşdur. Xarici valyuta ilə cəlb olunan əmanətlərin milli valyuta ekvivalenti ilə həcmi isə 3 milyon 736 min manat təşkil edir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2 milyon 190 min manat artım deməkdir.

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində keçirilən kollegiya iclasında digər məsələlərlə yanaşı, 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran məsələlər müzakirə edilmişdir.*

## Səhiyyə sistemində cari ilin payız-qış mövsümünə hazırlıq işləri aparılır

Səhiyyə naziri Niyazi Novruzov bildirmişdir ki, avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə aid nazirliklər və təşkilatlara tapşırıqlar verilmişdir. Verilən tapşırıqlarla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində tədbirlər planı hazırlanmış, əhaliyə keyfiyyətli tibbi xidmət göstərilməsi üçün səhiyyə müəssisələrinin yanacaq və dərman preparatları ilə təmin olunması xüsusi nəzarətə götürülmüşdür.

Kollegiya iclasında nazirliyin maliyyə-iqtisadiyyat sektorunun müdiri Fatma Zeynalovanın məruzəsi dinlənilmiş, rayon mərkəzi xəstəxanalarının, dispanserlərin baş həkimləri çıxış etmişlər. Qeyd olunmuşdur ki, 2015-2016-cı ilin payız-qış mövsümündə səhiyyə müəssisələrinin ahəngdar işini təmin etmək məqsədilə görüləcək işlər, onların icrası üçün dəqiq müddət və cavabdeh olan şəxslər müəyyənləşdirilmiş, qazanxanaların saz və təhlükəsiz işləməsi üçün cavabdeh şəxslər təyin edilmişdir.

Tədbirlər planına uyğun olaraq, Səhiyyə Nazirliyinə tabe olan tibb müəssisələrinin qazanxanalarında istilik sisteminin vəziyyəti yoxlanılmış, sistemdə olan nasazlıqların aradan qaldırılmasına başlanılmışdır. Müəyyənləşdirilmişdir ki, cari qış mövsümündə 64 tibb müəssisəsi fərdi istilik sistemi ilə, 88 müəssisə mərkəzi istilik sistemi ilə, 50 müəssisə neft sobası, 15 müəssisə isə təbii qazla, Naxçıvan şəhərində yerləşən tibb müəssisələrindən 2 müəssisə təbii qazla, digər müəssisələr isə fərdi istilik sistemi ilə qızdırılacaqdır.

Tədbirlər planına uyğun olaraq, xəstəxanalarda elektrik xətlərinin, qaz, su təchizatı, kanalizasiya sistemlərinin, səhiyyə müəssisələrinin fasiləsiz elektrik enerjisi ilə təmin edən transformatorların, fərdi istilik sistemi ilə qızdırılan səhiyyə müəssisələrində qızdırıcıların vəziyyəti yerindəcə yoxlanılaraq nasazlıqların aradan qaldırılmasına başlanılmışdır.

Xəstəxana binalarının və həkim ambulatoriyalarının dam örtüklərinin vəziyyəti yoxlanılmış, yararsız şiferlərin sayı müəyyənləşdirilmiş, yenilərinin alınması üçün sifarişlər verilmiş, ehtiyac olan qədər pəncərə şüşəsi və polietilen alınması nəzərdə tutulmuşdur. Tibb müəssisələrində olan təcili yardım maşınları texniki baxışdan keçirilmiş, təmirə ehtiyacı olan maşınların təmirinə başlanılmışdır.

Kollegiya iclasında ucqar dağ kəndlərində həkim ambulatoriyaları və feldşer-mama məntəqələrinin qışa hazırlıqla əlaqədar dərman təchizatının yaxşılaşdırılması, şəhər və rayon mərkəzlərində, o cümlədən qəsəbə və kəndlərdə əhaliyə keyfiyyətli xidmət göstərmək üçün alınacaq mal-materialların bölgü əsasında tibb müəssisələrinə paylanması üçün konkret vəzifələr müəyyənləşdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

## Operativ vergi nəzarəti tədbirləri gücləndirilib

***Bu ilin ilk 8 ayı ərzində muxtar respublika Vergilər Nazirliyi və onun yerli vergi orqanları tərəfindən operativ nəzarətin əhatə funksiyalarına daxil olan məsələlər üzrə 100 vergi ödəyicisində qanunvericiliyin pozulması faktları aşkar edilib və müvafiq tədbirlər görülüb.***

Həyata keçirilən operativ nəzarət tədbirləri zamanı 23 ödəyici tərəfindən əhali ilə nağd hesablaşmaların aparılması qaydalarının pozulması, 28 ödəyici tərəfindən xarici valyuta məbləğlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi və valyuta sərvətlərinin ticarət, iaşə və xidmət müəssisələrində qanunvericiliklə müəyyən edilmiş qaydalar pozulmaqla alınıb-satılması və ya dəyişdirilməsi faktları aşkarlanıb.

Vergilər Nazirliyi tərəfindən qəzetimizə verilən məlumatda bildirilib ki, operativ vergi nəzarəti tədbirləri zamanı 1 vergi ödəyicisində 1 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edilməsi, 15 vergi ödəyicisinin "Fərqlənmə nişanı" olmadan avtomobil nəqliyyatı ilə sərnişin daşıması, 18 vergi ödəyicisinin xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə belə razılıq verilmədən məşğul olması, 8 vergi ödəyicisində isə aksiz markası olmadan alkoqollu içki və tütün məmulatlarının satışı faktları aşkar edilib.

Əlavə olaraq keçirilən nəzarət tədbirləri zamanı 7 şəxsin vergi orqanlarında uçota durmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu aşkarlanıb. Həmin şəxslər barəsində qanuna müvafiq tədbirlər görülüb. Aparılan operativ nəzarət işləri zamanı tərtib edilmiş 12050.0 manat inzibati cərimə və maliyyə sanksiyası məbləğlərinin bugünkü tarixə tamamilə büdcəyə ödənilməsi təmin edilib. 2015-ci ilin qeyd olunan dövründə vergidənyayınma və dövriyyənin gizlədilməsi hallarına qarşı mübarizə məqsədilə 11 vergi ödəyicisində xronometraj metodu ilə müşahidə aparılıb və müşahidə zamanı müşahidəyədək olan dövriyyələr ilə müqayisədə 38021.2 manat dövriyyə artımına nail olunub.

Operativ vergi nəzarəti tədbirləri mütəmadi olaraq 2015-ci ilin sonrakı ayları ərzində də davam etdiriləcək.

**Xəbərlər şöbəsi**

***İlin belə bir gözəl vaxtı Naxçıvandan qərbə doğru, Ağrı dağı səmtində yola çıxıb irəlilədikcə həm bu nəhəng dağın əzəməti, həm də yolboyu ətraf kənd və qəsəbələrin gözəllikləri, sözün əsl mənasında, göz oxşayır. Heç bitməsin dediyimiz bu rahat yolun sonunda Vətənimizin ən qərb nöqtəsi, yurdumuzun döyünən ürəyi, Naxçıvanın qeyrət qalası Sədərəklə qeyri-adi tanışlıq bizi gözləyir.***

*Şəhərləşən kəndlərimiz*

# Sədərək



Bəzən xəritə önündə dayanıb Azərbaycandan daha geniş ölkələr, çöllər, səhralar görsək də, misilsiz gözəllikləri olan yurdumuzun kəndləri, şəhərləri kimi yerlərə çətin ki, rast gəlmək olar. Şübhəsiz, Vətənimizin hər qarış torpağı qiymətlidir. Amma nədənsə, hər dəfə Sədərək kimi sərhəd məntəqələrimizdə olduqda bu duyğular daha da qüvvətlənib, insanın ürəyindəki ən ülvi hislərlə birgə çuğlaşır. Heydərabad qəsəbəsinin, Sədərək və Qaraağac kəndlərinin uzaqda deyil, cəmi bir neçə yüz metrlik sərhəddəki qaynar sosial və təsərrüfat həyatı burada ölkəmizin bütün yaşayış məntəqələrindən fərqli bir mənzərə yaradır: Sədərəyin özünəməxsus gözəllikləri vardır.

Əhalisi 8 min 500 nəfərdən yuxarı olan Sədərək kəndi təkcə muxtar respublikamızın deyil, eləcə də ölkəmizin iri kənd yaşayış məntəqələrindən biri kimi öz inkişaf səviyyəsi ilə seçilir. Hazırda bölgənin inkişaf edən yaşayış məntəqəsi kimi bu kəndin simasını kənddən daha çox şəhər elementləri bəzəməkdədir. Adı tarixin minillik qatlarından gələn Sədərəyin bu bölgənin strateji yaşayış məntəqəsi olduğu tədqiqatçılar tərəfindən artıq təsdiq olunmuşdur. Bir çox mənbələrdə adı “Səd rəng” yəni “Min rəng” kimi qeyd olunan bu kənddə çox sayda türkmənşəli toponimlər vardır. Sədərək qalası, Ağ oğlan, Kültəpə və sair kimi qədim adlar buna misaldır. Bu qədim yaşayış məntəqəsi kim bilir, nə zamansa neçə min nəfərlik bir şəhər olmuşdur.

“Şəhərləşən kəndlərimiz” rubrikasında növbəti yazımızda Sədərək kəndinin bugünkü inkişaf mənzərəsi haqqında düşünərkən yaxın keçmişdə sədərəklilərin xalqımızın qəhrəmanlıq tarixindəki yerini, “Sədərək” deyəndə yüzlərlə, minlərlə naxçıvanlının ürəyində hələ də yaşayan hansı hislərin yenidən baş qaldırdığını da unutmaq olmaz. Mənə görə burada, düşmənlə üzüzə, aralarında qadın, kişi, qoca, cavan 52 nəfər sədərəkli şəhidin uyuduğu Şəhidlər xiyabanında bir dəqiqəlik sükutu yaşamadan bu duyğuları bölüşmək çox çətin olardı. Həyat isə davam edir. Sədərəklilər tarixin sınaq anında nəinki öz torpaqlarını qəhrəmanlıqla müdafiə etdilər, onu tərəqqiyə qovuşdurub əsl cənnətə çevirdilər. İndi bu torpaqda həm milli müstəqilliyimiz uğrunda canından keçmiş azərbaycanlıların, həm də 1918-ci ildə mənfur ermənilərə qarşı döyüşdə şəhid olmuş türk əsgərinin məzarları gülçiçəyə bürünmüşdür.

Sədərək kəndinin müasir mənzərəsinə baxdıqda onun təsərrüfatçılıq ənənələri və sosial həyatı ön plana çıxır. Onu qeyd etməliyik ki, sədərəklilər cəsur olduqları qədər, təsərrüfatda da bacarıqlı, işgüzar, eyni zamanda çox qonaqpərvər insanlardır. Yəqin ki, oxucularımız da öz sədərəkli dost-tanışları timsalında bu fikrimizlə razılaşarlar. İstər muxtar respublikamızın iqtisadi və mədəni həyatında, istərsə də ölkəmizin paytaxtında sədərəkli iş adamları yaxşı tanınırlar. Sədərəklilər kəndin 2721 hektar əkin sahəsində, əsasən, taxılçılıq və meyvəçiliklə məşğul olurlar. Ümumilikdə, bu kənddə 1300 hektardan çox sahədə taxıl əkilir, 2 min başa yaxın iribuynuzlu, 11 min başdan çox xırdabuynuzlu heyvan, 600-dən çox arı ailəsi bəslənilir. Bununla yanaşı, Sədərəkdə çörəkbişirmə, avtomobil təmiri, xalçatoxuma sexləri də fəaliyyət göstərir.

Davam edən iqtisadi inkişaf Sədərək kəndinin günü-gündən genişlənməsinə, yeni evlərin tikilməsinə səbəb olmuşdur. Kənddə olarkən öyrəndik ki, təkcə ötən il Sədərək kəndində 41 yeni ev tikilmiş, 51 ev təmir olunmuşdur. İndi kənddə əksəriyyəti ikimərtəbəli olmaqla, 100-dən çox villatipli müasir ev vardır. Avtobusla Şərur və Naxçıvan şəhərlərinə gün ərzində 4 dəfə və Heydərabad qəsəbəsinə müntəzəm nəqliyyat xidməti göstərilir. Sədərəklilərin əksəriyyəti lüks olmaqla, 700-ə yaxın minik avtomobili vardır. Kənddaxili yolların asfaltlanması sakinlərin və buraya gələn qonaqların rahat hərəkət etməsinə imkan yaradır. Ümumiyyətlə, kənddəki geniş bazar kompleksi, iaşə obyektləri və 450 nəfərlik şadlıq evi bu kəndin əhalisinin şəhərə üz tutmadan bütün iqtisadi və mədəni tələbatlarını ödəməyə xidmət edir.

Mədəni inkişaf isə, şübhəsiz, təhsil və sağlamlıq xidmətləri olmadan mümkün deyildir. Sədərəklilər bu baxımdan da şəhərlilərdən geri qalmırlar. 2010-cu ildə istifadəyə verilmiş 26 çarpayılıq, 14 həkim və 35 tibb işçisi, apteki, iki həkim ambulatoriyası olan Sədərək Rayon Mərkəzi Xəstəxanası bu kəndin çox mühüm sosial obyektlərindəndir. 2010-cu ildə tikilmiş 2 nömrəli tam orta məktəb, 2012-ci ildə istifadəyə verilmiş Sədərək Kənd Mərkəzi, 2014-cü ilin yanvar ayında istifadəyə verilmiş 1 nömrəli tam orta məktəb, təqribən, bir il əvvəl, ötən ilin avqustunda istifadəyə verilmiş “Sədərək” şadlıq evi və Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binası da son beş ilin quruculuq ərməğanlarındandır. Hazırda kənddə tikintisi davam etdirilən musiqi məktəbi, içməli su və kanalizasiya xətti gələcəkdə Sədərəyin quruculuq ünvanlarının sayını daha da artıracaqdır. Kənddəki mədəniyyət evi, istirahət parkı, futbol və voleybol meydançaları sədərəkli gənclərin asudə vaxtlarının mənalı keçirilməsində mühüm əhəmiyyətli sosial obyektlərdəndir. Burada elektron xidmətlər sarıdan da heç bir sıxıntı yoxdur. İki bankomat və 7 POS-terminalla sədərəklilər lazımi işləri elə kənddəcə həll edirlər. Ağsaqqallar üçün müasirtipli çay evində dünyagörmüş insanlarla keçirilən birsaatlıq söhbət isə Sədərəyi daha yaxından tanımağa yetər. Ağsaqqallardan 1941-1945-ci illər müharibəsi iştirakçısı Ələkbər Cabbarov və Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurası Sədərək Rayon Təşkilatının sədri Teymur Quliyev bugünkü Sədərəkdəki güngüzəranı həmişə arzu etdiklərini, yaradılan nə varsa onun dəyərini bilməyi, qoruyub saxlamağı cavanlara öyüd-nəsihət etdiklərini bildirdilər. Söhbətlərində keçmiş xatirələrinə qayıdan bu nurani insanların ömürlərinin qızıl kimi qiymətli günlərindən məmnunluğu gözlərindən oxunurdu.

Sədərəyə göstərilən diqqət onun əhalisinin sosial-mədəni tələbatlarının ödənilməsi ilə yanaşı, təhsildə də uğurlu nəticələr qazanmağa imkan yaradır. İndi kənddə fəaliyyət göstərən iki tam orta məktəbdə 1067 şagirdin müasir təhsil ala bilməsi üçün dövlət tərəfindən bütün şərait yaradılmışdır. Bu iki məktəbdə çalışan 78 müəllimin isə yetirmələri ilə fəxr etməyə haqqı vardır. Builki qəbul nəticələrinə görə, Sədərək kənd məktəblərindən məzun olmuş 73 nəfərdən 21 nəfəri ali məktəblərə qəbul olunmuş, onlardan 2 nəfəri isə 500 baldan yuxarı nəticə göstərmişdir.

*“Şəhərləşən kəndlərimiz” rubrikasında daha bir yazımızın sonuna gəldik. Qədim Naxçıvanın hansı səmtinə səfər etsən, irilixırdalı bütün yaşayış məntəqələrində müasirlik növrağı ilə alışıb-yanan quruculuq əzmi, başlamış layihələri sonacan çatdıra bilmək iradəsi qarşımıza çıxır. Səbir və uzaqgörənliklə həyata keçirilən bütün bu işlər isə nə zamansa xalqımızın həyatının çətin zamanlarında ulu öndərimizin Naxçıvanla bağlı arzularının başa çatdırılması üçün verilmiş sözün, bir rəhbər qətiyyətinin məhsuludur. Qarşıda isə hələ çox işlər bizi gözləyir.*

**Əli CABBAROV**

# Payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələr müzakirə olunur

***Ordubad rayonunda keçirilən tədbiri icra başçısı Elşad Məmmədov açaraq bildirmişdir ki, 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar Ordubad rayonunda da bir sıra işlər görülmüşdür.***

Diqqətə çatdırılmışdır ki, rayon üzrə bu ilin payız-qış mövsümündə yeni tikililərlə birlikdə 91 müasirtipli istilik sistemi fəaliyyət göstərəcək. Onlardan 72-si qazanxanatipli, 19-u isə kombitipli istilik sistemləridir. Rayon Kommunal Müəssisələri Kombinatı tərəfindən 9 qazanxana vasitəsilə 15 binada 414 mənzil istiliklə təmin olunacaq. Kommunal Müəssisələri Kombinatının tabeliyində olan yaşayış binalarında qışa hazırlıqla əlaqədar mənzillərin qızdırılması üçün istismarda olan 9 qazanxanaya baxış keçirilmiş və nasazlıqlar aradan qaldırılmışdır. Qazanxanaların hamısı işlək vəziyyətdədir.

Bütün qazanxanalarda texniki təhlükəsizlik təmin edilmiş, işçilər təhlükəsizlik qaydaları ilə təlimatlandırılmış və işçi geyimləri ilə təmin olunmuşlar. Xidmətedici heyətin peşə hazırlığını artırmaq məqsədilə ixtisas kurslarında təhsil almaları təmin edilmişdir.

Elşad Məmmədov demişdir ki, rayonun təhsil, səhiyyə, mədəniyyət və digər müəssisələrində payız-qış mövsümü ilə əlaqədar binalarda əsaslı və cari təmir işləri aparılmış, qapı-pəncərələr və dam örtükləri saz vəziyyətə gətirilmişdir. Bu il 43 təhsil müəssisəsindən 26-sı qazanxana, 17-si isə neft sobası vasitəsilə qızdırılacaq. Mövsüm dövründə təhsil müəssisələrində tədrisin fasiləsiz və normal keçirilməsi üçün 35 min litr ağ neft yanacağına, rayonun mədəniyyət müəssisələrində 9 min litr ağ neft, səhiyyə müəssisələrində isə 11 min litr ağ neft yanacağına ehtiyac vardır ki, bu da bölgü əsasında yerlərə çatdırılacaq.

Rayon Rabitə İdarəsi tərəfindən 2015-2016-cı ilin payız-qış mövsümü ilə əlaqədar akkumulyator batareyaları yenisi ilə əvəz edilmiş, xətt təsərrüfatında olan dayaqlara baxış keçirilmiş, yararsız dayaqlar yeni dəmir dayaqlarla əvəz olunmuş, quyularda təmir işləri aparılmış, sıradan çıxmış quyu qapaqları dəyişdirilmiş və çatışmazlıqlar aradan qaldırılmışdır.

İcra başçısı qarşıda duran vəzifələrdən danışaraq bildirmişdir ki, rayon Elektrik Şəbəkəsi qış mövsümünə hazırlıqla əlaqədar mövcud transformator yarımstansiyalarının texniki baxışdan keçirilməsini sentyabr ayı ərzində təmin etməli, istismara yararsız, standartlara uyğun gəlməyən, bir çox hallarda qəzalara səbəb olan elektrik avadanlıq və xətlərinin yenilənməsini diqqət mərkəzində saxlamalıdır.

Qaz İstismarı İdarəsi qaz təchizatı sistemində texniki baxış tədbirlərini qısa müddətdə həyata keçirməli, nasazlıqlar vaxtında aşkar edilərək aradan qaldırılmalı və təbii qaz nəqlinin soyuq hava şəraitinə uyğun gələn texnoloji rejimdə həyata keçirilməsi üçün tədbirlər görməlidir.

Rayon ərazisində avtobus və mikroavtobusların qrafikə uyğun hərəkəti və nəqliyyat vasitələrinin texniki sazlığı diqqətdə saxlanılmalıdır. Marşrut və digər nəqliyyat vasitələrinin qarlı günlərdə rahat hərəkət etmələri üçün rayon Yol İstismar İdarəsi mövcud texnikaları saz vəziyyətə gətirməli, yollar vaxtında təmizlənməli, maşın və mexanizmlər üçün ehtiyat hissələrinin alınmasını təmin etməlidir.

Rayon Mərkəzi Xəstəxanası rayon mərkəzində, o cümlədən qəsəbə və kəndlərdə əhaliyə keyfiyyətli tibbi xidmət göstərilməsi üçün səhiyyə müəssisələrinin yanacaq və dərman preparatları ilə təminatını daha da gücləndirməlidir.

Məruzə ətrafında rayon Elektrik Şəbəkəsinin direktoru Ramazan Rzayevin, Qaz İstismarı İdarəsinin rəisi Tural Əzimovun, Təhsil Şöbəsinin müdiri Samir Zeynalovun, Mədəniyyət və Turizm Şöbəsinin müdiri Azər Əliyevin çıxışları olmuşdur.

Qeyd olunmuşdur ki, müzakirə olunan məsələ haqqında aid idarə və təşkilatlar tədbirlər planı hazırlamalı, komissiyalar yaradılmalı, ötən payız-qış mövsümündəki çatışmazlıqlar ciddi təhlil edilməklə həmin nöqsanlara bir daha yol verilməməsi üçün təsirli tədbirlər görülməli və tapşırıqlar qısa müddətdə yerinə yetirilməlidir.

* * *

Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə qarşıya qoyulmuş tapşırıqların icrası ilə bağlı Culfa Rayon İcra Hakimiyyətində keçirilən müşavirəni icra başçısı Şükür Babayev açmış, İcra Hakimiyyəti başçısının müavini Nazim İmaməliyevin, Qaz İstismarı İdarəsinin rəisi Elxan Behbudovun, Elektrik Şəbəkəsinin direktoru Səid Həşimovun məlumatları dinlənilmişdir.

Mövzu ilə bağlı məruzə edən icra başçısı Şükür Babayev bildirmişdir ki, payız-qış mövsümünə hazırlıqla əlaqədar bir sıra işlər görülsə də, qarşıya qoyulan tapşırıqlar tam yerinə yetirilməmişdir. Aidiyyəti orqanlar öhdələrinə düşən vəzifələrin icrası istiqamətində fəaliyyətlərini daha da gücləndirməli, mövcud çatışmazlıqların vaxtında aradan qaldırılması üçün dövlət tərəfindən yaradılmış şəraitdən səmərəli istifadə etməlidirlər.

Əhalinin elektrik enerjisinə, təbii qaza və istiliyə olan tələbatının ödənilməsi, eləcə də digər infrastruktur sahələrinin payız-qış mövsümündə normal fəaliyyət göstərməsi üçün indidən lazımi tədbirlər həyata keçirilməli, mal-material ehtiyatı yaradılmalıdır. Yerlərdə elektrik və qaz xətlərinin yararlı vəziyyətdə olmasına nəzarət gücləndirilməli, xətlərdəki nasazlıqların aradan qaldırılması istiqamətində tədbirlər mütəmadi olaraq davam etdirilməlidir.

Vurğulanmışdır ki, qış mövsümünə hazırlıqla əlaqədar transformatorların texniki baxışdan keçirilməsi sentyabr ayı ərzində başa çatdırılmalı, qəza yarada biləcək istismara yararsız, standartlara uyğun gəlməyən elektrik avadanlıqlarının və xətlərinin yenilənməsi təmin olunmalıdır. Elektrik enerjisindən istifadə zamanı yaranan texniki itkinin normalara uyğun minimuma endirilməsi üçün tədbirlər görülməli, elektrik enerjisindən qanunsuz istifadə hallarının qarşısı alınmalı, bu məqsədlə istehlakçılar arasında mütəmadi olaraq maarifləndirmə işi aparılmalıdır.

Şükür Babayev diqqətə çatdırmışdır ki, payız-qış mövsümündə fasiləsiz qaz nəqlini təmin etmək üçün qazpaylayıcı qurğulara, orta və aşağıtəzyiqli qaz xətlərinə mütəmadi olaraq texniki baxış keçirilməli, qurğuların mövsümə uyğun tənzimlənməsi təmin edilməli, yaradılmış mal-material ehtiyatından səmərəli istifadə olunması diqqət mərkəzində saxlanılmalıdır.

İcra başçısı demişdir ki, cari il noyabr ayının 1-dək qazanxanalarda elektrik enerjisi, təbii qaz və su ilə təchizat araşdırılıb nöqsanlar aradan qaldırılmalı, həmçinin binaların daxili istilik sistemlərinə texniki baxış keçirilməli, aşkar olunan nasazlıqlar vaxtında aradan qaldırılmalıdır.

Sonda payız-qış mövsümünü uğurla başa vurmaq üçün fikir mübadiləsi aparılmışdır.

**Xəbərlər şöbəsi**

***1903-cü il mart ayının 30-da Tiflis ədəbi-ictimai mühiti böyük sevinc içində idi. Azərbaycanın milli mətbuatının çağırışçısı olan "Şərqi-Rus" qəzeti nəşrə başlamışdı. Qeyd edək ki, həmin illərdə Tiflis həm də Qafqaz xalqlarının mədəni mərkəzi idi. Bu səbəbdən Tiflisdə yaşayan xalqların qabaqcıl ziyalıları bir-birləri ilə yaradıcılıq əlaqəsi saxlayırdılar. Belə səmimi yaradıcılıq münasibətlərinin nəticəsi idi ki, "Şərqi-Rus" qəzetinin nəşri digər xalqların da yazıçılarının, jurnalistlərinin sevincinə səbəb olmuşdu.***

*Axtarışlar, tapıntılar*

# "Şərqi-Rus" qəzeti ilə bağlı yeni araşdırmalar

Rusiyada yaşayan bütün türkdilli xalqların ziyalıları, habelə İran, Türkiyə və digər ölkələrin də qələm sahibləri Azərbaycan dilində nəşrə başlayan "Şərqi-Rus" qəzetinin işıq üzü görməsinə ürəkdən sevinirdilər.

"Şərqi-Rus" qəzeti əvvəlcə həftədə üç dəfə – çərşənbə, cümə və bazar günləri, 1904-cü il iyunun 8-dən isə hər gün buraxılmağa başladı.

XX yüzilliyin ilk Azərbaycan qəzeti olan "Şərqi-Rus"un banisi, naşiri və baş redaktoru özünün ictimai-siyasi, fəlsəfi görüşlərində daha irəli addımlamış, çoxcəhətli fəaliyyəti ilə seçilən, çoxlu sayda ədəbi, publisist, siyasi və fəlsəfi xarakterli məqalələrin müəllifi olan qətiyyətli, hünərli və cəsarətli şəxsiyyət Məhəmməd ağa Şahtaxtlı idi. Bir məsələni qeyd etmək yerinə düşər: Məhəmməd ağanın 1920-ci ilədək rəsmi sənədlərdə familiyası Şahtaxtinski kimi yazılmışdır.

Əvvəlcə Məhəmməd ağanın mənsub olduğu nəsil haqqında azacıq məlumat vermək maraqlı olardı. Azərbaycanın milli dövlətçilik tarixinin inkişaf yollarını araşdırdıqda görürük ki, bu inkişafda nəsillərin də böyük rolu olub.

Doğma Azərbaycanın milli dövlətçilik tarixində və taleyində Şahtaxtinskilər – Kəngərlilər də böyük xidmətlər göstərmişlər. Əvvəllər Atabəylər dövlətində, Səfəvi və Osmanlı imperiyalarında, sonralar Naxçıvan və İrəvan xanlıqlarında, XIX əsrdə və XX yüzilliyin keçmiş Sovet İttifaqında, Avropanın bir çox ölkələrində hərbi, siyasi və elm, maarif, səhiyyə və digər sahələrdə müstəsna xidmətləri olmasına baxmayaraq, Şahtaxtinski – Kəngərlilər haqqında ətraflı tədqiqat aparılmadığından az qala bu qədim sülalə unudulmuşdu...

Ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra Şahtaxtinskilərin – Kəngərlilərin Azərbaycanın milli dövlətçilik tarixində fəaliyyətləri haqqında tədqiqat işləri aparılmağa başlanmış və müstəqil dövlətimiz tərəfindən onların xatirəsi əbədiləşdirilmişdir. "Tariximizdə və taleyimizdə Şahtaxtinskilər" (2010) kitabının nəşrindən sonra da axtarışlarımızı MDB məkanının bir çox arxivlərində, xüsusilə Tiflisdəki Gürcüstan Milli Arxivinin fondlarında və muzeylərdə davam etdirmişik. Xeyli orijinal sənədlər, faktlar və fotoşəkillər tapıldığından xalqımızın taleyüklü məsələlərində xüsusi xidmətləri olan Şahtaxtinskilər haqqında yeni bir kitabı nəşrə hazırlayırıq.

Aparılan axtarışlar zamanı görkəmli publisist, filosof, naşir, pedaqoq, poliqraf, tərcüməçi, diplomat, maarifçi Məhəmməd ağa Şahtaxtlıya aid maraqlı sənədlər qovluğunu da tapa bildik. Qafqaz canişinliyinin və Canişin dəftərxanasının fondlarında Məhəmməd ağa haqqında maraqlı sənədlər saxlanılır.

"Qafqaz canişinin dəftərxanası" fondundakı sənədlər qovluğu 69 səhifəlikdir. Həmin qovluğun üzərində yazılıb: "İrəvan quberniyasının Naxçıvan şəhər sakini, hazırda Tiflisdə yaşayan Məhəmməd Sultanoviç Şahtaxtinskiyə "Şərqi-Rus" qəzetinin nəşri üçün icazə verilməsi haqqında". Buradakı sənədlərin tarixi 1902-1905-ci illərə aiddir. Məlumat üçün deyək ki, sovet hakimiyyəti illərində "Şərqi-Rus" qəzetinin nəşri ilə bağlı bir sıra tədqiqatlar aparılmışdır. Tədqiqatçı alim, həmyerlimiz Şövqi Novruzov "Şərqi-Rus"la bağlı elmi-tədqiqat işi də yazmışdır. Onun zamanına görə bəzi ziddiyyətli fikirlərinə baxmayaraq, yazdığı monoqrafiya öz aktuallığı ilə seçilir.

Ədəbiyyatşünas-alim Əziz Şərif böyük yazıçımız Mirzə Cəlil haqqında yazdığı "Molla Nəsrəddin" necə yarandı?" kitabında "Şərqi-Rus" qəzetinin fəaliyyətindən də söhbət açmışdır. Müstəqillik illərində isə akademik İsa Həbibbəyli Məhəmməd ağa Şahtaxtlının "Seçilmiş əsərləri"ni nəşr etdirmişdir. Onun yazdığı geniş və əhatəli girişdə ilk dəfə olaraq bir çox qaranlıq məsələlərə aydınlıq gətirilmişdir.

Qeyd edək ki, digər tədqiqatçı alimlərin də maraqlı elmi məqalələri vardır. Amma tapılan arxiv sənədləri ilə tanışlıq imkan verir deyək ki, Məhəmməd ağanın 71 illik elmi və siyasi fəaliyyətinin dərindən və kompleks şəkildə araşdırılmasına böyük ehtiyac vardır.

Məhəmməd ağa Şahtaxtlı müxtəlif ölkələrdə və şəhərlərdə təhsil aldığından, müəllimlik etdiyindən, bir cəsur jurnalist kimi tanındığından və siyasi fəaliyyətindən, diplomatik xidmətdə olduğundan onun haqqında doğru-düzgün yazmaq üçün dərindən tədqiqat aparmaq lazımdır.

Tapdığımız sənədlər onun yüksək erudisiyasından, cəsarətindən, milliliyindən, aydın və böyük mənalı publisistikasından xəbər verir.

Məhəmməd ağa Şahtaxtlı "Şərqi-Rus" qəzetini nəşr edəndə Rusiyada, Avropada və Yaxın Şərq ölkələrində tanınmış bir mütəfəkkir idi. O, XIX əsrin sonunda və XX əsrin əvvəllərində çoxcəhətli fəaliyyət göstərən jurnalist idi. XIX əsrin 70-ci illərindən dövri mətbuatda çıxış edən Məhəmməd ağanın ədəbi-tənqidi məqalələrinin mövzu dairəsi çox genişdir: Şərq xalqlarının tarixi və müasir həyatı, beynəlxalq əlaqələr, dil və mədəniyyət, maarif, din və fəlsəfə. Bu siyahını uzatmaq da olar. Arxiv sənədləri ilə tanışlıq belə söyləməyə əsas verir. Məhəmməd ağanın ədəbi jurnalistlik fəaliyyəti Azərbaycan və rus mətbuat tarixi ilə çox bağlıdır.

Tapılan sənədlərdə onun öz əli ilə yazdığı və imzaladığı ərizələr maraq doğurur. 1863-cü ildə Naxçıvan şəhər məktəbini bitirən, sonralar İrəvanda və Tiflisdə təhsilini davam etdirən Məhəmməd ağanın taleyində Tiflis şəhərinin xüsusi yeri olmuşdur. XIX əsrdə və XX əsrin əvvəllərində Qafqazın mərkəzi olan Tiflis şəhərində klassik kişi gimnaziyasını bitirən Məhəmməd ağa Rusiyanın və Avropa ölkələrinin sayılıb-seçilən universitetlərində təhsil aldıqdan sonra yenidən Tiflisə qayıtmışdır. Onun elmi dünyagörüşünün formalaşmasında Tiflisin ədəbi və elmi mühitinin böyük mənəvi təsiri olmuşdur. Məhəmməd ağanın ən böyük arzularından biri Azərbaycan dilində qəzet nəşr etdirmək olub. O, müxtəlif illərdə (fasilələrlə) Tiflisə dönmüş və Qafqaz canişinliyinin vasitəsilə Rusiya hökumətinə ərizə ilə müraciət etmişdir. Hələ 1896-cı ildə Məhəmməd ağa Şahtaxtlı Qafqaz Senzor Komitəsinə və Rusiya Daxili İşlər Nazirliyinə ərizə ilə bildirmişdir ki, ona Azərbaycan, türk, ərəb və fars dillərində "Tiflis" adlı qəzeti nəşr etməyə icazə versinlər. O, ərizəsinə geniş bir proqram da əlavə etmişdi. Ancaq çar məmurları bu proqramdan ildırımdan qorxduqları kimi ciddi narahatçılıq keçirmişdilər. Rəsmi qaydada rədd cavabı versələr də, qətiyyətli və çox cəsur olan Məhəmməd ağanın arzusunu söndürə bilməmişdilər. O, Peterburqa getmiş və yüksəkrütbəli çar məmurlarına müraciətlər etmişdir.

1889-cu ildə Fransaya gedən Məhəmməd ağa 1902-ci ildə yenidən Tiflisə qayıtmış və doğma Azərbaycan dilində qəzet çıxarmaq üçün Rusiya hökumətinə ərizə ilə müraciət etmişdir. Tapılan qovluqda onun yazdığı geniş əhatəli ərizələr vardır. Yazdığı ərizələrdə elmi, maraqlı dəlil və sübutlarla Qafqazın canişinini inandırmağa çalışmış və uzun-uzadı müraciətlərdən sonra onların müqavimətini qıra bilmişdir. Məsələn, onun general-adyutant knyaz G.S.Qolitsinə yazdığı ərizə çox əhatəlidir. Burada Məhəmməd ağanın nəşr üçün tərtib etdiyi proqram da vardır. O, burada maraqlı izahatlar verərək çar hökumətini inandırmağa çalışır ki, "Şərqi-Rus" qəzeti nəşri ilə Rusiya hökumətinə xeyir verə bilər və sair. Ərizədə 50 yaşında olduğunu da qeyd edir. (Amma bu vaxtlar onun 56 yaşı vardı – müəllif). Tiflisdə yaşadığı ünvanı (Olqinski küçəsi, Qoqniyevlərin evi № 16) göstərən Məhəmməd ağa ərizənin axırında qeyd edib: "Arzu edirəm ki, qəzetin həcmi "Svet" (İşıq) qəzetinin həcmində olsun". Hətta o bu ərizədə qeyd etmişdi ki, qəzet Libermanın mətbəəsində çap ediləcək. Görünür ki, bu mətbəə çar hökumətinin inandığı yer imiş. Amma sonralar Məhəmməd ağa doğulduğu Şahtaxtı kəndindəki mülkünü sataraq Tiflisdə müasir avadanlıqlı mətbəə açmışdı.

Böyük demokrat yazıçısı Cəlil Məmmədquluzadə öz "Xatiratım"da yazır: "... mənə, Məhəmməd ağanın vətəninin övladına bu məlumdur ki, o vaxtlar ədibimiz qəzet məşqinə düşəndə, mən eşitdim ki, Məhəmməd ağa atadanqalma mülkünün öz hissəsini satıb on səkkiz min manata və bu pulu alıb getsin Tiflisdə qəzet nəşr etsin.

Mən Tiflisdə Məhəmməd ağanın qəzetinin idarəsinə daxil olanda bildim ki, Naxçıvanda danışılan bu söhbət əsl həqiqətdir. Və o vaxt mən gördüm ki, bu on səkkiz min manat qəzet üçün xüsusi bir mətbəə saxlamağa sərf olunur.

Və bir az vaxtda mətbəə də düzəldi..."

"Şərqi-Rus" qəzetinin mətbəəsi əvvəlcə Çitanov karvansarasında kirayə edilmiş bir neçə otaqdan ibarət olsa da, sonralar Məhəmməd ağa onu daha münasib yerə – Baryatinski küçəsində Aleksandr bağının qarşısında yerləşən binaya köçürtmüşdü. Bu bina "Qafqaz" hərbi muzeyinin yaxınlığında yerləşirdi. İndi də o bina qalmaqdadır. Məhəmməd ağanın məslək və əməl dostu Ömər Faiq Nemanzadənin yazdığından məlum olur ki, bu mətbəə "o vaxt üçün lazımi qədər gözəl hərflər, hərf kassaları, böyük çap makinəsi" və sair avadanlıqla təchiz edilmişdi. Qeyd edək ki, 69 səhifəlik qovluqda Məhəmməd ağanın yazdığı rəsmi məktublarda və ərizələrdə bu haqda məlumatlar vardır.

Bir məsələni də hökmən xatırlamaq lazımdır. Məhəmməd ağa "Şərqi-Rus"un nəşri üçün poliqrafiya kursu açmışdı ki, mətbəə işini bilən milli kadrlar hazırlasın. Vaxtilə Avropa ölkələrində yaşayarkən öyrəndiyi poliqrafiya bilgiləri indi onun çox köməyinə çatırdı. Məhəmməd ağa təşkil etdiyi mətbəədə belə işçilər hazırlaya bildi: İsmayıl Haqqi Həsənzadə, Hüseyn, Allahverdi və Əbülqasım. Onlar bacarıqlı mürəttiblər idi. Onların bəzisi sonralar "Molla Nəsrəddin" jurnalında da mürəttib işləmişdi. Bunlardan İsmayıl Haqqi Həsənzadənin adını xüsusilə qeyd etmək ədalətli olardı. Mən Tiflisdə olarkən "Şərqi-Rus" qəzetinə və "Molla Nəsrəddin" jurnalına axıradək sədaqətli olan bu mürəttibin varisləri ilə axtarıb tapdım... "Şərqi-Rus" qəzetinin bütün nəşri (cəmi 392 nömrə) Baryatinski küçəsindəki "Məhəmməd ağa Şahtaxtinski" mətbəəsində işığı üzü görmüşdü. Bunlardan 45 nömrənin redaktoru Mirzə Cəlil Məmmədquluzadə olmuşdur. Tapılan sənədlərdə bu mətbəə ilə də bağlı maraqlı məlumatlara rast gəlinir.

Məhəmməd ağa Şahtaxtlıya hələ qəzet nəşrindən əvvəl Bakıda vaxtilə işlədiyi "Kaspi" qəzetinin redaktoru Əlimərdan bəy Topçubaşov maddi yardım edəcəyinə söz vermişdi. Amma sonralar o, bu vədini yerinə yetirmədi. Bu haqda bir az sonra.

Məhəmməd ağa Şahtaxtlı Naxçıvanda yaşayan ziyalı dostları olan M.T.Sidqini və Qurbanəli Şərifzadəni XX əsrin ilk Azərbaycan qəzetinin redaksiyasında işləməyə dəvət edirdi. O, Sidqiyə yazırdı: "Mənə inanınız və Tiflisə gəliniz. Cəhalətin xanımanını dağıtmaq üçün bir yerdə çalışaq!" Amma çox təəssüflər olsun ki, ziyalı dostları onun bu çağırışına səs vermədilər. Buna əsas səbəb Məhəmməd ağa Şahtaxtlının "Kaspi" qəzetinin sahibi və jurnalistləri ilə olan ciddi münaqişəsi idi. Bu münaqişə haqqında Əziz Şərif "Molla Nəsrəddin" necə yarandı?" (Bakı-1986) kitabında məlumat vermişdir.

Biz bu yazımızda yuxarıda qeyd etdiyimiz münaqişənin dərinliyinə getmirik. Çünki bu, həssas və dərin mətləbli məsələdir. Bu münaqişədə olan milyonçu H.Z.Tağıyevin, Ə.Topçubaşovun, Əhməd bəy Ağayevin və Məhəmməd ağa Şahtaxtlının Azərbaycanın ədəbiyyat və mədəniyyət tarixində böyük xidmətləri vardır. Amma bu ciddi münaqişə olub və həllini doğru-dürüst tapmalıdır. Məsələn, sovet hakimiyyəti illərində "Kaspi" qəzetinin jurnalistlərini daha çox günahlandırırdılar. Buna əsas səbəb onların mühacirət etmələri idi.

Tapdığımız sənədlərdə Məhəmməd ağa bu məsələyə aydınlıq gətirir. Onun yazdıqlarından məlum olur ki, onlar Məhəmməd ağanın nasirlik hüququnu ondan satın almaq məqsədində imişlər. Məhəmməd ağa isə minbir əziyyətlə nəşrinə icazə aldığı qəzeti heç kimə satmaq istəmir.

"Kaspi" və "Tərcüman" qəzetləri "Şərqi-Rus"u boykot etmək üçün var qüvvəsi ilə hücuma keçmişdilər. İş o yerə çatmışdı ki, Naxçıvan ziyalıları "Tərcüman" qəzetini almaqdan imtina etmişdilər.

1904-cü il iyunun 8-dən etibarən "Şərqi-Rus" qəzeti həftədə 7 dəfə nəşr olunduğundan Məhəmməd ağa müflisləşdi. O, çox təcrübəli bir naşir idi. Bilirdi ki, maddi dayaq tapmasa, qəzet nəşrini dayandıracaq. Sənədlər qovluğunda Məhəmməd ağanın Tiflisdə Mülki İşlər üzrə Baş Rəislik Dəftərxanasının müdirinə və Knyaz Qolitsinə yazdığı xahiş ərizələrindən məlum olur ki, o, "Şərqi-Rus"u xilas etmək üçün var gücü ilə maddi kömək arayıb.

Belə bir məqamda o, Qafqaz Mülki İşlər üzrə Baş İdarəsinə də müraciət etdi ki, mənə borc pul verin, əvəzində mətbəəmi girova qoyum. Ancaq Qafqaz Senzor Komitəsinin sədri M.Qakkel Məhəmməd ağaya müsbət cavab vermədi. M.Qakkel məğrur, cəsarətli və həddindən artıq savadlı olan Məhəmməd ağadan intiqam almaq istəyirdi. M.Qakkel öz ağalarına yazırdı: "Ölkənin rus mənafeyi üçün xidmət göstərməyən "Şərqi-Rus"a yardım üçün tutarlı bir münasibət görmürəm".

"Şərqi-Rus"u boykot etmək üçün hər cür iftira atan jurnalistlərə və məmurlara qarşı qətiyyətli mübarizə aparan Məhəmməd ağanın yazdıqlarından yan keçmək olmur.

"Şərqi-Rus" qəzetinin naşirinin dərin iqtisadi böhran keçirməsi onun Bakıda olan rəqiblərini sevindirdi. Onlar qəzetin naşirlik hüququnu ələ keçirmək üçün fəaliyyətə başladılar. Əhməd bəy Ağayevi Tiflisə Məhəmməd ağanın yanına göndərdilər ki, qəzetin nəşrinə imtiyazlı şərik olsunlar.

Məhəmməd ağa "Şərqi-Rus" qəzetinin nəşrinə külli miqdarda pul, gərgin zəhmət, yuxusuz gecələr sərf etmişdi. İstəmirdi ki, oxucularına ləyaqətlə xidmət edən qəzet bağlansın. Ona görə də Əhməd bəy Ağayevin yardım təklifinə razılıq verdi.

Beləliklə, Əhməd bəy Ağayev qəzet imtiyazına şərik oldu. Həmin gündən etibarən qəzetdə tamamilə ayrı mövzular görünməyə başladı.

Məhəmməd ağanın Əhməd bəy Ağayevlə bağladığı müqaviləyə görə "Şərqi-Rus" qəzeti Bakıya köçürülməli idi. Amma Qafqaz Senzor Komitəsi buna icazə vermədi. Ona görə də Məhəmməd ağa Peterburqa getməli oldu. O, 1904-cü il noyabrın 23-də əvvəlcə Bakıya, sonra Peterburqa yola düşdü. Onun bu tarixi səfəri bir aya yaxın davam etdiyindən qəzetin müvəqqəti redaktorluğunu sədaqətli dostu Mirzə Cəlil Məmmədquluzadəyə həvalə etmişdi. Arxiv sənədlərindən məlum olur ki, Məhəmməd ağa Peterburqda Mətbuat İşləri üzrə Baş İdarə rəisindən icazə ala bilib.

1905-ci il yanvar ayının 15-də Mətbuat İşləri üzrə 520 №-li əmr də 69 səhifəlik qovluqdakı sənədlərin içərisindədir. Bax beləcə "Şərqi-Rus" öz fəaliyyətini dayandırdı. Məhəmməd ağa sərəncam verdi ki, bütün mətbəə ləvazimatı, avadanlığı, arxivi ilə Bakıya köçürülsün. Köçmək üçün hər şey hazırlansa da, bu köç baş tutmadı. "Şərqi-Rus" qəzeti nə Bakıya köçdü, nə də Tiflisdə qaldı. Əbədi olaraq tarixdə qaldı.

Qəzetin nəşrində böyük xidmətləri olan Mirzə Cəlil Məmmədquluzadə "Xatiratım" adlı əsərində yazır: "Dünyada "Hikmətə" inanan adam olsaydım, mən deyə bilərdim ki, "Şərqi-Rus" qəzetinin yox olmağında bir "hikmət" var..."

Əgər Məhəmməd ağanın fəaliyyəti ilə bağlı dərindən araşdırma aparılarsa, tapılan arxiv sənədləri bu "hikmət"in sirrini açacaq.

**Ən əsası bu "hikməti" Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinə orijinal səhifələr yazmış ilk azərbaycanlı poliqlot, elmi məqalələrini, publisist, siyasi və fəlsəfi xarakterli əsərlərinin resenziyalarını Şərq və Qərb dillərində yazan və "Şərqi-Rus"un ilk nömrəsini görəndə sevincindən ağlayan cəsur, mərd və dəmir iradəli Məhəmməd ağa Şahtaxtlının xarakterində axtarmaq lazımdır.**

**Tiflisdə qalan bu mətbəə sonralar məşhur "Molla Nəsrəddin" jurnalının nəşrinə xidmət etdi və "Qeyrət" mətbəəsi adı ilə mətbuat tariximizdə yaşadı.**

**Musa QULİYEV**
*AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru*

Kənd təsərrüfatı ili

# Növbəli əkin və gübrələrdən düzgün istifadə məhsuldarlıqda əsas amildir

***Əkin sahələrinin münbitliyinin qorunmasında, məhsul istehsalının artırılmasında növbəli əkinin əhəmiyyəti böyükdür. Növbəli əkin dedikdə torpağın münbitliyini artırmaqla bitkilərin xəstəlik və zərərvericilərinə, habelə alaqlara qarşı mübarizə aparma əsasında bütün əkin sahələrindən yüksək və keyfiyyətli məhsul götürmək üçün bitkilərin sahə və vaxt üzrə növbə ilə əkilməsi, bununla əlaqədar görülən tədbirlər sistemi başa düşülür.***

Bitkiçilikdə növbəli əkinlərin tətbiqi çox böyük əhəmiyyətə malikdir. Çünki növbəli əkin zamanı bitkilərin bioloji xüsusiyyətlərindən asılı olaraq aparılan aqrotexniki tədbirlərin, hər bitkinin özündən sonra torpaqda müəyyən miqdar üzvi maddə (bitki qalıqları) saxlaması bu bitkidən sonra əkilmiş başqa bitkinin boy və inkişafına xeyli dərəcədə təsir göstərmiş olur.

Muxtar respublikamızda iqlim şəraitinə uyğun olaraq daha çox taxıl və dənli-paxlalı, kartof, tərəvəz və bostan bitkiləri əkilib-becərilir. Bu bitkiləri eyni yerdə bir neçə il təkrar əkib-becərdikdə məhsuldarlıq aşağı düşür.

Əkinlərin növbələşməsinin zəruri səbəbləri vardır. Dənli bitkilər inkişaf zamanı azot və fosfordan daha çox istifadə edir. Kartofa, şəkər çuğunduruna isə xeyli miqdarda kalium sərf olunur. Dənli bitkilərdə kök sistemi saçaqlıdır, köklər, əsasən, şum qatında yerləşir. Paxlalılarda, kökümeyvəlilərdə kök oxşəkillidir, torpağın dərin qatlarına gedir. Buna görə də dənli bitkilər qida maddələrini torpağın üst qatından, kökümeyvəlilər isə torpağın alt qatından alırlar. Əkinlərin düzgün növbələşməsi qida maddələrindən səmərəli istifadəyə təminat yaradır.

Bəzi təsərrüfatlarda ardıcıl olaraq bir çox illər tərəvəz bitkiləri, kartof və qarğıdalı eyni sahədə becərilir. Belə dövriyyəsiz əkinlərdən yüksək məhsul almağın səbəbi bir çox torpaq sahələrinin yüksək münbitli olması, düzgün suvarma tətbiq edilməsi, güclü gübrələmə, xəstəlik və zərərvericilərə qarşı ciddi mübarizə aparmaqdır. Bununla belə, əksər hallarda bir bitkini bir neçə il eyni yerdə əkdikdə, xüsusilə gübrə verilmədikdə ilbəil məhsuldarlıq azalır, xəstəlik və zərərvericilər şiddətli dərəcədə çoxalır, torpaq həmin bitki üçün zəhərli hala düşür. Çünki həmin bitki hər il ona lazım olan maddələri torpaqdan alır, yerində isə ona lazım olmayan maddələr qalır.

Əkinlərin düzgün növbələşməsi bitkilərə torpaqda olan və gübrələrlə verilən qida maddələrindən yaxşı istifadə etmək imkanı yaradır. Paxlalı bitkilər, xüsusən acıpaxla torpaqda olan bəzi mineral birləşmələrdəki və fosforit unundakı fosforu taxıl bitkilərinə nisbətən xeyli yaxşı mənimsəyirlər. Meyvəköklülər torpaqdakı udulmuş kaliumu tamamilə mənimsəyə bilərlər. Cərgəaraları becərilən bitkilər başqa bitkilərə nisbətən üzvi gübrələrə daha çox həssas olurlar və cərgəaraları becəriləndə torpaq yaxşı havalandığı üçün onlar üzvi gübrələrdən tam surətdə istifadə edirlər. Növbəli əkinə paxlalı bitkilərin daxil edilməsi torpağın azotla zənginləşməsinə səbəb olur. Bunun isə yoxsul podzol torpaqlarda çox böyük əhəmiyyəti vardır. Cərgəaraları becərilən bitkilər bir də ona görə bütün bitkilər üçün gözəl sələfdirlər ki, yüksək məhsul götürmək üçün onlara üzvi və mineral gübrələrin böyük dozaları verilir və gübrələr sonradan o yerdə əkilən bitkilərə də müsbət təsir göstərir.

Paxlalılar bütün bitkilər üçün çox gözəl sələf bitkiləridir. Onlar çoxlu yarpaq əmələ gətirdikləri üçün yazlıq alaqları boğur, qalan alaqların böyüməsini zəiflədir və eləcə də torpağın strukturunu yağışın dağıdıcı təsirindən yaxşı qoruyurlar. Paxlalı bitkilərin ən əsas qiymətli cəhəti odur ki, həzm olunan proteinlə zəngin məhsul verir və torpağı azotla zənginləşdirirlər.

Tərəvəzçilik üzrə açıq sahədə tətbiq olunan növbəli əkinlər zonalardan asılı olaraq müxtəlif tərəvəz-bostan bitkilərini əhatə edir. Təsərrüfatlarda faraş pomidor, badımcan, bibər, yazlıq və payızlıq kələm, kartof, xiyar, gül kələm və səbzə-tərəvəz bitkiləri əkində əsas yeri tutur.

Növbəli əkin zamanı müxtəlif vaxtlarda əkilən bitkilər torpağı quraqlıqdan qoruyur və məhsuldarlığı artırır. Qarğıdalı bütün mədəni bitkilərə nisbətən az su buxarlandırır və buna görə də yüksək məhsul verəndə belə, torpağı çox qurutmur. Qarğıdalı altında rütubət yaxşı qalır, çünki küləyin qüvvəsi və torpaqda suyun buxarlanması azalır.

Bol məhsulun əldə edilməsində növbəli əkinlə yanaşı, gübrələrin vaxtında verilməsi də mühüm əhəmiyyət daşıyır. Torpağa lazımi gübrələr verildikdə qida elementləri çox olur. Bitkinin həyat prosesi aktivləşir, torpaq münbitləşir. Gübrələr bitkilərin bioloji xüsusiyyətlərinə uyğun olaraq verilir. Bitkilərin qida maddələrinə tələbatı vegetasiyanın əvvəlində və fəal boyatma müddətində xüsusilə yüksək olur. Gübrə verilən il bitki ondan tam istifadə etmir, gübrənin müəyyən hissəsi ikinci və üçüncü ildə bitki tərəfindən mənimsənilir.

Gübrələr yüngül torpaqlara tez-tez və az miqdar ilə, az münbit torpaqlara üzvi gübrələr daha çox verilməlidir.

Gübrələr üç dəfə: səpinqabağı, səpin vaxtı və səpindən sonra verilir. Gübrələr səpinqabağı şum altına, torpağın dərin qatına verilir. Vegetasiyanın bütün dövrlərində üzvi gübrə, kompostlar və fosfordan geniş istifadə olunur. Səpin vaxtı verilən gübrələrdən bitkilər, əsasən, vegetasiyanın ilk dövründə bəhrələnir.

Səpindən sonrakı, yəni əlavə yemləmə gübrəsi bitkinin boyatma dövründə verilir. Bu zaman bitkilər daha çox ehtiyac duyduqları elementlərlə təchiz olunur. Payızlıq taxıllara ilk yazda əlavə gübrə kimi azot, fosfor və kaliumun verilməsi məhsuldarlığı artırmaqla bərabər, məhsulun keyfiyyətini də yaxşılaşdırır. Su ehtiyatı az olan quraqlıq şəraitində yandırıcı təsirə malik azot və kalium gübrələrindən az istifadə olunmalıdır.

Mədəni bitkilər əkilən torpaqlarda fosfor çatışmazlığı olur. Buna görə də fosfor gübrələrinin verilməsi torpağı münbitləşdirir və məhsuldarlığı yüksəldir. Məhz buna görədir ki, fosfor gübrələrinə el arasında "məhsul və bar" gübrəsi də deyilir. Fosfor gübrəsi bitkilərin xəstəliklərə davamlılığını artırır və ziyanvericiləri məhv edir.

Təsərrüfatçılarımız növbəli əkindən və gübrələrdən düzgün istifadə edərlərsə, məhsuldarlığı artırar və torpağın münbitliyinə təminat yaradarlar.

***Elmira ƏLİYEVA***
***Naxçıvan Muxtar Respublikası Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin baş aqronomu***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 10 sentyabr 2015-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın axırıncı satış qiyməti (manat) | Əmlakın (15 faiz) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|---|
| 1. | 0,06 ha torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı 42,00 kv.m yaşayış, 40,80 kv.m köməkçi sahədən ibarət həyətyanı sahə | Naxçıvan şəhərinin Qaraçuq kəndi | 27.000 | – | 22.950 | 1350 |
| 2. | 0,128 ha torpaq sahəsində yerləşən 2 mərtəbəli, 6 otaqlı, 128,0 kv.m yaşayış, 10,0 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış binası | Kəngərli rayonunun Xok kəndi | 12.500 | – | 10.625 | 625 |
| 3. | 0,3014 ha torpaq sahəsində yerləşən 82,0 kv.m yaşayış, 76,0 kv.m köməkçi sahədən ibarət yaşayış binası | Kəngərli rayonunun Qabıllı kəndi | 12.000 | – | 10.200 | 600 |
| 4. | 0,5325 ha torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 67,66 kv.m yaşayış, 16,81 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonunun Siyaqut kəndi | 19.200 | 19.200 | – | 960 |
| 5. | 0,1083 ha torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 71,80 kv.m yaşayış, 21,60 kv.m qeyri-yaşayış, 41,04 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonunun Siyaqut kəndi | 29.100 | 29.100 | – | 1455 |
| 6. | 1 mərtəbəli, 3 otaqlı, 128,25 kv.m ümumi, 81,00 kv.m yaşayış, 47,25 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonunun Siyaqut kəndi | 28.200 | 28.200 | – | 1410 |
| 7. | 0,0306 ha torpaq sahəsində yerləşən 1 mərtəbəli, 3 otaqlı, 42,52 kv.m yaşayış, 71,50 kv.m köməkçi sahədən ibarət 1 nömrəli fərdi yaşayış evi | Naxçıvan şəhər, B.Abbasov küçəsi, döngə1, dalan 2 | 35.000 | 35.000 | – | 1750 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5 faiz məbləğində beh "Kapital Bank" ASC Şərur rayon filialında olan AZ60AIIB32051019443360201133 nömrəli hesaba və "Naxçıvan Kredit" BOKT MMC-nin AZIINABZ12350600000000001944 nömrəli hesabına 8 sentyabr 2015-ci il tarixədək ödənməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Heydər Əliyev prospekti, 6) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- kommersiya banklarına ödəniləcək behin qəbzi;*

*-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 10 sentyabr 2015-ci il tarixdə, saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

**Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.**
**Əlaqə telefonu: 545-01-38**

# Muzey bələdçiləri üçün məşğələ

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Dövlət Tarix Muzeyində muzey bələdçiləri üçün təcrübə məşğələsi keçirilib.***



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mədəni irs və muzey işi üzrə baş məsləhətçisi Qumral Məmiyeva açaraq keçirilən tədbirin məqsəd və əhəmiyyətindən danışıb. Qeyd olunub ki, hazırda muxtar respublikada 28 müxtəlif profilli muzey fəaliyyət göstərir. Muzeylərimizə bu gün xüsusi diqqət və qayğı göstərilir, onların maddi-texniki bazası gücləndirilir, əməkdaşların peşəkarlıq səviyyəsi yüksəldilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamından sonra muzeylərin ziyarətçilərinin sayında əhəmiyyətli dərəcədə artım müşahidə edilib. Bu gün keçirilən seminarda əsas məqsəd muzey bələdçilərinin peşəkarlığının artırılmasına metodik kömək göstərməkdən ibarətdir.

Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Nizami Rəhimov "Ekskursiya işinin ümumi əsasları" mövzusunda çıxış edərək bildirib ki, son illərdə muzeylərimizdə xarici dilləri bilən bələdçilərin sayının artması diqqətçəkən məqamlardandır.

Nizami Rəhimov deyib ki, ekskursiya mətnləri hazırlanarkən elmi faktlara əsaslanmaq vacib məsələdir. Bələdçilər öz üzərlərində çalışmalı, onlara verilən suallara doğru-düzgün cavab verməlidirlər. Bələdçilər hər bir eksponat haqqında ziyarətçilərə ətraflı məlumat verməli, muzeylərin fondlarında olan eksponatlardan xəbərdar olmalıdırlar.

Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyinin direktoru Aləmzər İbrahimova "Bələdçinin davranış qaydaları" mövzusunda danışaraq bildirib ki, muzeyə gələnlər birinci bələdçi ilə rastlaşır və onların intellektual səviyyəsi, nitq mədəniyyəti sayəsində muzeylərə qiymət verir. Ona görə də muzey bələdçiləri zövqlə geyinməli, verilən suallara qaneedici cavab verməlidirlər. Unutmaq olmaz ki, muzey ziyarətçiləri arasında müxtəlif peşə və sənət sahibləri, ayrı-ayrı yaş qruplarına aid insanlar olur. Bələdçi ekskursiya apararkən etik qaydalara riayət etməli, maarifçilik işi apardığını unutmamalıdır. Məktəblilərlə ekskursiya apararkən uşaq və yeniyetmələrin yaş dövrünə görə tələbləri nəzərə alınmalıdır.

Məşğələnin sonunda Naxçıvan Dövlət Tarix Muzeyinin ekspozisiyasına baxış olub, ekskursiya keçirilib, ingilis dilində aparılan ekskursiyada iştirakçıları maraqlandıran suallara cavab verilib.

**Əli RZAYEV**

***İtmişdir***

Naxçıvan şəhəri, Vaqif küçəsi, döngə 2, ev 25-də yaşamış Hümbətova Tacirə Məmməd qızının adına olan 3419 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 688